# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının maliyyə və təşkilati dəstəyi ilə elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş beynəlxalq xarakterli 2-ci "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-2-Shusha-2013-3(9)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Dağlıq Qarabağda Nərgiztəpə arxeoloji abidələr kompleksi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əliyev Təvəkkül Rəsul oğlu**
Qrantın məbləği: **40 000 manat**
Layihənin nömrəsi: **EİF/MQM-2-Şuşa-2013-3(9)-10/03/5-M-07**
Müqavilənin imzalanma tarixi: **26 fevral 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2014-cü il-01 sentyabr 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>1. Tədqiqatla bağlı ədəbiyyat toplanıb sistemləşdirilmişdir;<br>2. Xocavənd rayonuna təşkil olunan ezamiyyə və ekspedisiyalar zamanı Nərgiztəpə və ətraf ərazilərdə arxeoloji-kəşfiyyat işləri aparılmış, yeni qeydə alınan abidələrin arxeoloji xəritəsi tərtib edilmiş və topoplanları (o cümlədən Nərgiztəpənin ətəyindəki orta əsr türk qəbiristanlığının) çıxarılmış, arxeoloji kompleksə daxil olan abidələrin arealı xeyli genişləndirilmişdir;<br>3. Yoxlama şurflar və arxeoloji qazıntılar nəticəsində Nərgiztəpə yaşayış yerinin stratiqrafiyası müəyyən edilmiş, məskənin şimal hissəsindəki 60 kv. metrlik qazıntı sahəsində 2,5 m dərinliyədək olan antik və orta əsrlərə aid mədəni təbəqə açılaraq öyrənilmişdir;<br>4. Aparılan qazıntının planları çıxarılmış, toplanan artefaktlar kameral işlənmiş, illüstrativ |

| | |
|---|---|
| | materiallar çap üçün hazırlanmışdır;<br>5. Çöl səfərləri zamanı toplanan artefaktlar kameral işlənmiş, nəzərdə tutulan nəşr üçün illüstrativ materiallar hazırlanmış, maddi-mədəniyyət nümunələrinin foto şəkilləri əlavə olunmaqla inventar siyahısı tərtib edilmişdir;<br>6. Nərgiztəpə arxeoloji abidələr kompleksinin tədqiqiqnə dair hesabat və məqalələr hazırlanıb nəşrə təqdim olunmuş, 2 ç.v. həcmində kitabça-buklet tam halda – tərcümə (ingilis), rəy və çıxarışlarla birgə Fonda təhvil verilmiş, layihə üzrə işlənməsi nəzərdə tutulan monoqrafiya üçün Qarabağın arxeoloji abidələrinin icmalından ibarət mətn hazırlanmış, elmi sessiya və kütləvi informasiya vasitələrində mütəmadi çıxışlar edilmişdir;<br>7. Nərgiztəpənin Mil-Qarabağ bölgəsindəki arxeoloji abidələr arasında yeri müəyyənləşdirilmişdir;<br>8. Əvvəllər Nərgiztəpə haqqında yalnız yerüstü və təsadüfi materiallar əsasında fikir yürüdüldüyü halda, layihə çərçivəsində aparılan arxeoloji qazıntılar bu abidənin üst mədəni qatları haqqında səhih məlumatlar əldə etməyə imkan vermişdir;<br>9. Nərgiztəpədə aparılan tədqiqatların ilkin nəticələri haqqında müvafiq qurumlara (AMEA, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Xocavənd Rayon İcra Hakimiyyəti) hesabat və arayışlar hazırlanıb təqdim edilmişdir;<br>10. Tədqiqatda qədim cəmiyyətin inkişafı qanunauyğunluğunu, siyasi, sosial-iqtisadi, mədəni-təsərrüfat həyatını araşdörmaq məqsədilə Nərgiztəpədən əldə edilən arxeoloji materialların sinxron abidələrdən toplanan artefaktlarla müqayisəli təhlili aparılmış, bu metodun məntiqi əsasını təşkil edən analogiyalardan geniş istifadə olunmuşdur. Müqayisəli təhlil konkret məkan və zaman çərçivəsində baş vermiş hadisələrin ümumi, ortaq cəhətləri ilə yanaşı, həm də fərqli xüsusiyyətləri aşkara çıxarmağa imkan verib. Bu metodla yanaşı tədqiqatda digər bir neçə üsuldan – məntiqi təhlil, tarixi-tipoloji (tədqiq edilən materialın ayrı-ayrılıqda təsnif edilməsi onun mahiyyətinin daha aydın açılmasına kömək edir), ümumiləşdirmə, dövrləşmə, o cümlədən retrospektiv üsullardan da istifadə edilmişdir;<br>11. Bir sıra dəqiq elmlərlə, məsələn, geodeziya, geofizika və b. ilə qarşılıqlı əlaqə sayəsində tədqiqat obyektlərinin topoqrafik planları çıxarılmış, maqnitoloji xəritəsi çəkilmiş, ərazilər peyk və CORONA, GeoEye ve Google Earth sistemləri ilə nəzərdən keçirilmişdir;<br>12. Tədqiqatın gedişində yerli və xarici həmkarlarla fikir mübadiləri aparılmış, ətrafda təsərrüfatla məşğul olan şəxslər arasında tədqiq edilən ərazi və abidələrlə bağlı şifahi sorğular keçirilmişdir. |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>85-90 faiz |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>1. İlk dəfə olaraq Nərgiztəpə arxeoloji kompleksinə daxil olan abidələrin yayılma arealı, xarakteri, xronoloji çərçivəsi və Azərbaycanın maddi mədəniyyətində yeri müəyyənləşdirilmişdir;<br>2. Kompleksə daxil olan qədim məzarlıq və yaşayış məskənlərinin ümumi səciyyəsi və xronoloji çərçivəsi müəyyən edilmişdir;<br>3. Nərgiztəpə qəbiristanlığındakı qəbirüstü daşlarda çəkilən işarə və damğaların, daş sənduqələr üzərindəki ərəb qrafikalı mətnlərin tədqiqi nəticəsində müəyyən edilmişdir ki, 300-dən artıq qəbir olan bu məzarlıq oğuz türklərinə, o cümlədən avşarlara aiddir;<br>4. Nərgiztəpə yaşayış məskənində A1 və A2 kvadratlarında aparılan arxeoloji qazıntılar zamanı abidənin üst mədəni təbəqələrinə - orta əsrlərə və antik dövrə aid yeni artefaktlar əldə olunmuş, |

| | |
|---|---|
| | çiy kərpicdən antik dövrə aid tikili qalıqları açılmış, abidənin ətrafının möhrə və iri girdə bazalt daşlarından qala divarları ilə əhatəyə alınması müəyyən edilmişdir. Nərgiztəpədən cənubda siklopik tikili qalıqları, daş qutu və küp qəbirlərdən ibarət qəbiristanlıq aşkar edilmişdir;<br>5. Nərgiztəpə və onun ətraflarında aparılan tədqiqatlar Mil-Qarabağ bölgəsində Neolit dövrünün sonlarından başlayaraq XX əsrin axırlarınadək, xüsusilə son üç min ildə intensiv həyatın olduğunu təsdiq edir. Münasib landşaft, əlverişlı təbii-coğrafi şərait bölgədə belə ardıcıl məskunlaşmanı şərtləndirmiş, Azərbaycan xalqının təşəkkülü prosesində maddi və mənəvi varisliyin qorunmasına imkan yaratmışdır;<br>6. Nərgiztəpə və onun ətrafındakı ərazilər antik və erkən orta əsrlərdə Qafqaz Albaniyasının Arsax və Uti vilayətlərinə daxil olmuş, burada yaşayan əhali Azərbaycan türk xalqının təşəkkülündə mühüm rol oynamışdır;<br>7. Nərgiztəpə tədqiqatları Orta Tunc dövründə erkən şəhər mədəniyyətinin, Antik və Erkən Orta əsrlərdə, Müsəlman İntibahı dövründə və ondan sonrakı yüzilliklərdə bölgədə yaşayan tayfaların mədəni-təsərrüfat həyatının, dünyagörüşünün araşdırılmasında, təbii-coğrafi şəraitə uyğun olaraq məskunlaşma zamanı baş verən dəyişikliyin izlənilməsində elmi və təcrübi əhəmiyyət kəsb edir;<br>8. Əldə olunan nəticələrdən Qarabağın, bütövlükdə Azərbaycanın tarixinə aid fundamental əsərlərin, çoxcildliklərin hazırlanmasında, dərsliklərin yazılmasında istifadə oluna bilər;<br>9. Göstərilən nəticələrin arxeoloji materiallar qismində maddi dəlillərlə söykənməsi onların yenilik dərəcəsinin göstəricisidir;<br>10. Layihə çərçivəsində Nərgiztəpədə aparılan tədqiqatları bu abidənin öyrənilməsində ilkin mərhələ, bir təkan hesab etmək olar. Gələcəkdə onun hələ uzun müddət əhəmiyyətli bir abidə kimi diqqəti cəlb edəcəyi, ardıcıl, geniş arxeoloji qazıntılar aparmaqla tədqiq olunacağı şübhə doğurmur. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>1.Nərgiztəpə - Qarabağda tədqiqata cəlb olunan daha bir abidə // Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik çöl-tədqiqatlarının yekunlarına həsr olunmuş Elmi sessiyanın materialları. Çap olunub: Bakı, 2014, səh.82-84 (həmmüəllif: V.T.Əliyev).<br>2.Nərgiztəpədə ilkin arxeoloji tədqiqatlar."Azərbaycan Arxeologiyası" jurnalı (Xəzər Universiteti). 10 səh. –Nəşrdədir (həmmüəlliflər: B.İbrahimli, G.Hüseynova).<br>3.Mil-Qarabağ ekspedisiyası Nərgiztəpə dəstəsinin çöl qeydləri. "Azərbaycanda Arxeoloji Araşdırmalar" məcmuəsi (AMEA Arxeologiya və Etnoqrafiya institutu). 9 səh. Mətn və şəkillər. - Nəşrdədir (həmmüəllif: V.T.Əliyev).<br>4.Nərgiztəpədə orta əsr türk qəbiristanlığı. "Azərbaycanda arxeoloji və etnoqrafik tədqiqatlar" jurnalı (AMEA Arxeologiya və Etnoqrafiya institutu). 13 səh.. illüstrasiyalarla bir yerdə. - Nəşrdədir (həmmüəlliflər: B.İbrahimli, G.Hüseynova).<br>5.Nərgiztəpə arxeoloji abidələr kompleksi. Kitabça-buklet. Azərbaycan və ingilis dillərində, illüstrasiyalı. 2 ç.v. (həmmüəlliflər: B.İbrahimli, G.Hüseynova). EİF-na təhvil verilib.<br>Qeyd: Göstərilən məqalələrin surətləri kağız üzərində və CD şəklində əvvəlki mərhələdə və aralıq illik hesabatda Fonda təhvil verilmişdir. |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | Nərgiztəpə arxeoloji abidələr kompleksinin elmi və ictimai-siyasi əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə Nərgiztəpə abidələrinin, xüsusilə buradakı tikili qalıqlarının konservasiyası və bərpası istiqamətində işlərinin görülməsinin zəruriliyi ilə bağlı müraciətlər edilmiş, Nərgiztəpədə arxeoparkın yaradılması haqqında təklif verilmişdir. Nərgiztəpə materialları əsasında Yeni Xocavənd qəsəbəsində Tarix-Diyarşünaslıq muzeyinin yaradılmasının məqsədəuyğun olması barədə Xocavənd Rayon İcra Hakimiyyətinin rəhbərliyinə fikir bildirilmişdir. |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>Layihə iştirakçıları mərhələlər üzrə plana görə 2014-cü ilin aprel və may aylarında, 2015-ci ilin may və iyun aylarında Xocavənd rayonunda ezamiyyətdə olmuş, arxeoloji tədqiqat işlərini yerinə yetirmişlər. |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)*<br>Layihənin mərhələlərində nəzərdə tutulan plan üzrə 2014-2015-ci illərdə Xocavənd rayonuna ekspedisiyalar təşkil olunmuş, Nərgiztəpə və onun ətraflarında kəşfiyyat-axtarış və arxeoloji qazıntı işləri aparılmışdır. |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Layihə rəhbəri və iştirakçıları mütamadi olaraq Xocavənd rayonunn rəhbərliyi və ictimaiyyəti ilə görüşlər keçirmiş, onlara rayon ərazisində - Nərgiztəpədə aparılann tədqiqatlar haqqında məlumatlar çatdırmışlar. |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>Layihə rəhbəri 2014-cü il 25-26 dekabr tarixdə Azərbaycanda aparılan arxeoloji və etnoqrafik tədqiqatlara həsr olunan və Bakıda keçirilən Elmi sessiyada "Nərgiztəpə - Qarabağda tədqiqata cəlb olunan daha bir abidə" adlı məruzə ilə çıxış etmişdir.<br>Laihə ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilən "Qarabağ tədqiqatları" mövzusunda keçirilən konfransda Qarabağdakı Nərgiztəpə arxeoloji abidələr kompleksində aparılan araşdırmalar haqqında məruzə edilmişdir (21 aprel 2015-ci il). |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)*<br>Layihə çərçivəsində aşağıdakı avadanlıq və cihazlar alınmışdır: 1. Noutbuk kompüter (1 əd.); 2.Garmin GPS MAP 64s; 3. Fotoaparat. |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | Layihə üzrə aparılan tədqiqatların gedişi haqqında Arxeologiya və Etnoqrafiya institutunun rəhbərliyi ardıcıl olaraq məlumatlandırılır, arxeoloq həmkarlarla, xüsusilə Qarabağ bölgəsinin tədqiqatçıları ilə (prof. H.Cəfərov, prof.Q.İsmayılzadə və b.) fikir mübadiləsi aparılmışdır. |
| 12 | Xarici həmkarlarla əlaqələr<br>*(burada doldurmalı)*<br>Mil-Qarabağ bölgəsində tədqiqat aparan Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyasının və Almaniya Arxeologiya institutunun əməkdaşları (B.Helving, A.Ricci, A.Kvast, F.Fasbinger və b.) dəvətimizi qəbul edib bir neçə dəfə Nərgiztəpəyə gəlmiş, onlarla hazırkı layihə ilə bağlı müzakirələr aparılmışdır.<br>Almaniyalı mütəxəssislər (A.Kvast, Y.Fasbinder və b.) müasir texniki avadanlıqlardan istifadə etməklə abidənin topoqrafik və maqnitoloji planlarının çıxarılmasında bizə yaxından köməklik göstərmişlər. |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa)<br>*(burada doldurmalı)*<br>Layihə iştirakçılarından Hüseynova Gülanə İlqar qızı "Aran Qarabağın antik dövr abidələri" adlı dissertasiya mövzusu üzərində çalışır. Bu işdə Nərgiztəpədə aparılan tədqiqatların, o cümlədən 2014-cü ildə burada aşkar edilən və qazılaraq tədqiq olunan küp qəbirin materiallarından istifadə olunmuşdur. AMEA Arxeologiya və Etnoqrafiya institutunun dissertantı Elgün Aslanovun"Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsr arxeoloji abidələri" adlı işində də Nərgiztəpənin orta əsr materialları yer almışdır. |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa)<br>*(burada doldurmalı)* |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa)<br>*(burada doldurmalı)*<br>Tədqiqat materialları mütəmadi olaraq sinxron abidələrlə (xüsusilə Qarabağın) müqayisə edilmiş, yerli və xarici həmkarlarla təcrübə mübadiləsi aparılmışdır. |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir)<br>*(burada doldurmalı)*<br>Laihə ilə bağlı layihə rəhbəri və iştirakçıların "Azərbaycan radiosu"nda (01.01.2014, saat 23.00-23.45), Lider TV-nin "Səhər çağı" verilişində (20.02.2014, saat 8.00-10.00), Az.TV-nin "Mədəniyyət" kanalında (26 fevral 2014-cü il, saat 13.45-14.30; 07 aprel 2014-cü il, saat 12.00–13.30), AzTv-nin "Səhər" verilişində (02 mart 2015-ci il, saat 8.30-9.00) Azərbaycan Respublikası Prezidenti yanında EİF "Şuşa qrantı" müsabiqəsi çərçivəsində həyata keçirilən layihələrdən, o cümlədən "Dağlıq Qarabağda Nərgiztəpə arxeoloji abidələri kompleksi" adlı layihədən, Nərgiztəpə tədqiqatlarından ətraflı bəhs edilmiş, slaydlar göstərilmişdir. Nərgiztəpədə aparılan çöl tədqiqatları və onun nəticələri haqqında AzərTacın hazırladığı geniş məlumatlar çoxlu fotoşəkillərlə birlikdə dəfələrlə (5 avqust 2014-cü il, 3 iyun 2015-ci il, 02 sentyabr 2015-ci il tarixdə)müxtəlif informasiya kanallarında işıqlandırı lmışdır. Beynəlxalq Avrasiya Mətbuat Fondunun əməkdaşı, Qarabağ münaqışəsində Azərbaycan həqiqətlərini Dünyaya çatdıran Litvalı hərbi jurnalist R.Lapaitisə Nərgiztəpə haqqında ətraflı məlumat verilmişdir. 21 sentyabr 2014-cü il tarixdə AzTV-nin səhər verilişində, 5 dekabr 2014-cü ildə Beynəlxalq Mətbuat Mərkəzində "Sərsəng SOS: təhlükə altında qalan tarixi və mədəniyyət abidələri" adlı kitabın təqdimat |

mərasimində Nərgiztəpə və onun ətrafındakı abidələr, burada aparılan tədqiqatlar haqqında məlumat verilmişdir. Azərbaycanda yeni yaradılan internet kanal – "Kulturaplus"un çəkiliş qrupu hazırkı layihənin rəhbəri ilə 2015-ci ilin yanvar ayında Nərgiztəpədə olmuş, "Kitabi Dədə Qorqud"eposunun ilk nüsxələrinin aşkar edilməsinin 200 illiyi münasibətilə ölkədə keçirilən tədbirlər sırasında "Qarabağlı Qaraca Çoban" adlı film (rus dilində) hazırlamışdır. 6fevral 2014-cü ildə işıq üzü görən bu filmdə (bax: kulturaplus.az - Гараджа чабан из Гарабаха) Nərgiztəpə tədqiqatlarından geniş danışılır.
Nərgiztəpə və onun ətrafındakı abidələr haqqında məlumatlar, yeni qazıntı materiallarının foto şəkilləri tez-tez facebook səhifələrində həmkarlarla paylaşılmışdır.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
"28" 09 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

____________________
*(imza)*
" __" ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Əliyev Təvəkkül Rəsul oğlu

____________________
*(imza)*
"28" sentyabr 2015-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının maliyyə və təşkilati dəstəyi ilə elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş beynəlxalq xarakterli 2-ci "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-2-Shusha-2013-3(9)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Dağlıq Qarabağda Nərgiztəpə arxeoloji abidələr kompleksi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əliyev Təvəkkül Rəsul oğlu**
Qrantın məbləği: **40 000 manat**
Layihənin nömrəsi: **EİF/MQM-2-Şuşa-2013-3(9)-10/03/5-M-07**
Müqavilənin imzalanma tarixi: **26 fevral 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2014-cü il-01 sentyabr 2015-ci il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| 1 | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(burada doldurmalı)* Nərgiztəpə kompleksinə daxil olan abidələrin arxeoloji xəritəsi tərib olunmuş, topoqrafik planları çıxarılmış, bu abidələrin xarakteri, xronoloji çərçivəsi, mənsubiyyəti və regionun digər həmdövr abidələri sırasında yeri müəyyən edilmişdir. Yaşayış məskənində aparılan arxeoloji qazıntılar onun stratiqrafiyasını müəyyən etməyə imkah vermişdir. Erkən şəhər mədəniyyətinin izləri olan Nərgiztəpə Naxçıvandakı II Kültəpə, Ağdam ərazisindəki Üzərliktəpə və b. bu tip abidələrlə müqayisə oluna bilər. Antik dövrə aid boyalı keramika Qarabağın analoji abidələri üçün (Qalatəpə, Üzərliktəpə, Qaraköbər, Şatırlı və b.) səciyyəvidir. Nərgiztəpənin orta əsrlərə aid nümunələri, xüsusilə şirli saxsı məmulatı isə Müsəlman İntibahı |

| | |
|---|---|
| | dövrünün maddi mədəniyyət nümunələri ilə oxşarlıq təşkil edir. |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(burada doldurmalı)* Azərbaycanın qədim və orta əsrlər tarixinin, o cümlədən Azərbaycan xalqının formalaşma prosesinin araşdırılmasında, arxeoloji xəritələrin tərtibində, fundamental əsərlərin, çoxcildliklərin yazılmasında, ali və orta ümumtəhsil məktəbləri üçün dərsliklərin hazırlanmasında, Qarabağın təkcə arxeologiyasının deyil, həm də memarlığının, folklorunun öyrənilməsində hazırkı layihənin icrası gedişində əldə edilmiş nəticələrdən istifadə oluna bilər. |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

_______________
*(imza)*
"28" ___03___ 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

_______________
*(imza)*
"__" _______ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Əliyev Təvəkkül Rəsul oğlu

_______________
*(imza)*
" _28_ " _sentyabr_ 2015-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının maliyyə və təşkilati dəstəyi ilə elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü ildə keçirilmiş beynəlxalq xarakterli 2-ci "ŞUŞA QRANTI" müsabiqəsinin (EİF/MQM-2-Shusha-2013-3(9)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Dağlıq Qarabağda Nərgiztəpə arxeoloji abidələr kompleksi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əliyev Təvəkkül Rəsul oğlu**
Qrantın məbləği: **40 000 manat**
Layihənin nömrəsi: **EİF/MQM-2-Şuşa-2013-3(9)-10/03/5-M-07**
Müqavilənin imzalanma tarixi: **26 fevral 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2014-cü il-01 sentyabr 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | | | |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 1 | 3 | 1 |
| | həmçinin xarici nəşrlərdə | | | |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Konfrans materiallarında məqalələr | 1 | | |
| | O cümlədən, beynəlxalq konfras materiallarında | | | |
| 4. | Məruzələrin tezisləri | | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | 1 | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Azərbaycanda arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş Elmi sessiya (Bakı, dekabr 2014) | ölkədaxili | şifahi, divar | 1 |
| 2. | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilən "Qarabağ tədqiqatları" mövzusunda keçirilən konfrans (21 aprel 2015-ci il) | ölkədaxili | şifahi, divar | 1 |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Ədilə Əli qızı

____________________
*(imza)*
“28” __09__ 2015-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

____________________
*(imza)*
“ __” _______ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Əliyev Təvəkkül Rəsul oğlu

____________________
*(imza)*
“ _28_ ” _sentyabr _ 2015-ci il